Nərmin SADƏDDİNLİ
Bakı Avrasiya Universitetinin doktorantı
E-mail: sadeddinlinermin@gmail.com

BOZQURD TOTEM KİMİ

XÜLASƏ

Məqalədə Bozqurd totem-əcdad mifologemi olaraq araşdırılmışdır. Mifologiyada yaradılışın əsasını mifik əcdad obrazı təşkil edir. İlkin mifik əcdadlar həm də zoobrazlar şəklində olur. Bunlar totem əcdadlardır. Bozqurd da türklərin əcdadlarından hesab olunur. "Dədə Qorqud" dastanında Salur Qazan "Əzvay bir qurd əniyində köküm var" deyir. Müəyyən tədqiqatlarda Bozqurdun totem əcdad olması inkar olunsa da, hər halda, qurdun əcdad olması mifoloji mətnlərlə təsdiq olunur. Bozqurddan törəmiş olduqları inancı türkləri hər zaman qürurlandırır. Bəzi dastanlarda ana, bəzilərində isə ata rolunu oynayan bozqurd bir nəslin məhv olması zamanı peyda olur və bütöv bir nəsli xilas edir.

Açar sözlər: totem, əcdad, inanc, əfsanə, kult

SUMMARY
LIKE A WOLF TOTEM

The article examines Bozkurt as a totem-ancestral mythology. In mythology, the basis of creation is the image of a mythical ancestor. Early mythical ancestors also took the form of zoobraz. These are totem ancestors. Bozkurt is also considered to be one of the ancestors of the Turks. In the epos «Dada Gorgud», Salur Kazan says, «Azvay has roots in the breast of a wolf». Although some studies deny that the wolf is a totem ancestor, in any case, the ancestor of the wolf is confirmed by mythological texts. The belief that they are descended from Bozkurt always makes Turks proud. In some sagas, the wolf, who plays the role of the mother and in others the father, appears during the destruction of a generation and saves an entire generation.

Key words:totem, ancestor, belief, legend, cult

РЕЗЮМЕ
ТОТЕМ ВОЛКА

В статье Бозкурт рассматривается как мифология тотемных предков. В мифологии основой творения является образ мифического предка. Ранние мифические предки также принимали форму зообраза. Это тотемные предки. Бозкурт также считается одним из предков турок. В эпосе «Дада Горгуд» Салур Казан говорит: «Азвай имеет корни в груди волка». Хотя некоторые исследования отрицают, что волк является тотемным предком, в любом случае предок волка подтверждается мифологическими текстами. Вера в то, что они произошли от Бозкурта, всегда вызывает гордость у турок. В одних сагах волк, играющий роль матери, а в других - отца, появляется во время разрушения поколения и спасает целое поколение.

Ключевые слова:тотем, предок, вера, легенда, культ

Məsələnin qoyuluşu: Bozqurd obrazı türk mədəniyyət tarixində çox geniş yayılmışdır. Obrazın türk milli düşüncəsinin müxtəlif laylarında özünə yer tutması onun funksional strukturunun mürəkkəbliyi ilə bağlıdır. Bu funksiyalar içərisində bozqurd-totem funksiyası mühüm rola malikdir.

İşin məqsədi: Tədqiqatın aparılmasında əsas məqsəd Bozqurd obrazının totem semantikasını araşdırmaqdır.

R.Qafarlı totemizm anlayışına belə bir şərh verir: "Totemizm-ayrı-ayrı insan dəstələrinin elə bir inanc formasıdır ki, icma üzvlərinin hər hansı bir heyvan, yaxud bitki ilə qan qohumluğunun olmasına əsaslanır" [13, s 15]. Qədim zamanlarda qəbilə üzvləri bir yerə getdikdə totem heyvanları da özləri ilə aparırdılar. Onlar həmin totemin hərəkətlərini yamsılamaqla sanki özlərinin də qeydi-adi gücə malik olduqlarına inanırdılar. Onlar totem hesab etdikləri bu varlıqların onları təbii fəlakətlərdən, quraqlıqdan, aclıqdan, susuzluqdan qoruduqlarını hesab edirdilər. Qurd türk mifologiyasında ən mühüm totemlərdən biridir. Qədim türklər qurda "kök böri" yəni "göy qurd" deyirdilər. "Kök" göy mənasına gəlir. Yəni göy rəngdə olan qurd. Qurdun göy rəngi onu müqəddəs edir. Həmçinin qurdla tanrı arasında bir rabitə olduğunu göstərirdilər. "Qurd" sözü ilk olaraq tayfa , qəbilə adında, daha sonra isə toponim kimi işlənmişdir.

Göytürk dövlətini quran Aşina ailəsi Türkün ən kiçik arvadının soyundan gəlirdi. Həmin qadının soyu Bozqurd idi. Türk öldükdən sonra on övlad birləşərək özlərinə bəylik yaratmaq istədilər, bu bəyliyə də bir Bəyi rəhbər təyin etdilər.Hamısı bir arada bir ağacın altına toplaşdılar və orada belə qərara gəldilər: "Ağacın ən yüksəyinə kim atlaya bilərsə, o, bəy olacaq". Aşinanın oğlu aralarında ən kiçik olmasına baxmayaraq, o, ən yüksəyə atladı və onu özlərinə bəy seçdilər. Aşina oğlu bəy olduqdan sonra Aşina Şad adlandı. Aşina Şaddan sonra hakimiyyətə Bumin xaqan gəldi. Göytürklər Hunların soyundan gəlirdilər [8, s 507-509].

Bozqurdun göydən gəlməsi, işığın içində peyda olması, Oğuz dövlətini qoruması onu müqəddəs edir. Qurdun totem-əcdad funksiyasında çıxış etməsi Çingiz xanla bağlı fikirlərdə də vurğulanır. Türk araşdırıcısı Necati Gültepe bu fikirdədir. O yazır: "Göytürk əfsanələrindən fərqli olaraq qurd burada əcdad-ata, əcdad-anadır. Mifologiyada Çingizin atalarından biri Börteçinədir. Tarixi salnamə və rəvayətlərdə Çingizin atası ölərkən günəş kimi yanıb sönən qurd şəklinə düşən "Duyun Bayan"dır. Deməli, Çingizin soyunda 2 qurd vardır. Onun ulu nənəsi Alankoanın çadırına göy işığın içindən çıxanda da qurddur. Bu oxşarlıq "Oğuz Kağan" dastanında da özünü göstərir. Həmin dastanda da Oğuzun çadırına qurd mavi işıq içərisində enir. Oğuz Dastanındakı qurd qoruyucu, Çingiz əfsanəsindəki qurd isə onun atasıdır" [8, s. 513-514].

Göytürk dövründə əcdad-qoruyucu kimi tanınan qurd həm də müqəddəs varlıq idi. Bozqurd haqqında miflər türklər arasında geniş yayılmışdır. Türk Aşina sülaləsi qurdu özlərinə ana əcdad hesab etməklə, onun şəklini bayraqlarının üstünə asırmışlar. Əslində, "Aşina" sözü də qurd mənasına gəlir. Bozqurdun pis ruhlardan gələ biləcək bəlaların qarşısını ala bilməsi üçün insanlar evlərinə qurd başı və ya qurd dişi asarmışlar.

Toba sülaləsi Göytürk və Uyğur dövlətlərinin ən yaxın çinli qonşusu idi. Bozqurdun əcdad olmasını "Toba" əfsanəsinin məzmunu ilə tanış olduqda daha yaxşı başa düşürük: "Kao-çı xaqanın iki qızı var idi. Bu qızlar çox ağıllı və çox gözəl idilər. Ataları belə qərara gəlmişdi ki, bu qızlar ancaq Tanrıya layiq ola bilərlər. Xaqan qızlarını aparıb bir təpənin başına qoymuşdu. Özü də orada gözləyirmiş. Ancaq qızlar nə qədər gözləsə də, Tanrı gəlməmiş, nə də o qızlarla evlənmə-

mişdi. Qızlar təpədə gözləyərkən ətraflarında bir erkək qurdun dolaşmağa başladığını görmüşlər. Kiçik qız qurdu bu vəziyyətdə görüb şübhələnmiş və bacısına demişdir ki, "bu qurd həmin Tanrının özüdür, mən onun yanına gedəcəm və onunla evlənəcəm". Böyük bacısı nə qədər israr etsə də, balaca bacı onu dinləmədi. Beləliklə Kao-çı xalqı hökmdarın qızı ilə qurddan törəmişdir" [17, s 33].

A.Nəbiyevin "İlaxır çərşənbələr" kitabında "Qurd və su" mifi öz əksini tapmışdır. Mifdə göstərilir ki, insan və qurd arasında məhrəm ünsiyyət baş vermişdir. Oğuz oğlu Qurdun yeganə qızının yaralarını Buz bulağın suyu ilə sağaldır. Qurd ona təşəkkür etmək üçün qızını Oğuz oğluna ərə verir və deyir: "Bu izdivac sənə əbədi həyat və qüdrət verəcək. Oğuz oğlu sənin oğlundan törəyəcək. Yeddi oğul yeddi ölkənin qüdrətli xaqanı olacaqdır" [15, s. 12-13].

Oğuz oğlu qurdun qızı ilə evləndi. Ondan dünyaya gələn yeddi igid yeddi xaqan oldu. Qurd haqqında söylənilmiş əfsanə və rəvayətlər demək olar ki, ya eynilik, ya da oxşarlıq təşkil edir. Çünki hər biri ümumi bir qaynaq olan türk mifologiyasına əsaslanır. Buradan da belə nəticə ortaya çıxır:

1) Qurd əcdaddır (o, yeni nəslin tərəfdarıdır və müqəddəs tutulmalıdır);

2) Qurd xilaskardır.

L.P.Potapov yuxarıda haqqında bəhs etdiyimiz əfsanələri təhlil edib, onlara öz münasibətini bildirir, eyni zamanda ingilis tədqiqatçısı D.Klosonun "Türklər və qurdlar" əsərində irəli sürülmüş "qurd qədim türklərdə totem olmuşdurmu?" fikrində mübahisəli məqamların olduğunu vurğulayır. Onun fikrincə, müasir türk xalqlarında və monqollarda qurda sitayiş haqqında böyük miqdarda etnoqrafik materialların olmasına baxmayaraq, bu inamı totemlə bağlamaq olmaz" [16, s. 81]. Lakin L.P. Potapov öz fikrini sübuta yetirmək üçün Altayda yaşayan bəzi türk xalqlarının mifik dünyagörüşünə müraciət edir. Həmçinin qədim türklərdə qurda sitayişin totem olmaması üzərində geniş dayanmır. Başqa sözlə desək, qurdun totem kimi qəbul edilməsi faktı ilə razılaşmır [16, s. 81].

Herodot da öz yazılarında qurdu totem-əcdad kimi qələmə verir. Onun fikrincə, Roma tarixinə müraciət etsək, Kapitoli təpəsindəki heykəldə Rem və Romul qardaşlarını qurdun əmizdirdiyini görərik. Əhəmənilər sülaləsinin hökmdarı Kiri İşbaka adlı qadın əmizdirir. İşbaka Kiri ölümdən qurtaran çobanın arvadıdır. Hətta sonralar Kir haqqında yazan tədqiqatçılar qeyd edirlər ki, Kir əsəbiləşəndə insanların üstünə dişlərini qıcayıb mırıldayırmış. O bildirir ki, müsəlman mənbələrində bu faktlar gerçəkdir [1, s. 102].

Qurd kultunu əcdad paradiqması kontekstində araşdıran R.T.Əlizadə aydınlaşdırmışdır ki, türk-etnik mədəni ənənəsində fəal yer tutmuş qurdun ulu əcdad timsalında icra etdiyi funksiyalar Azərbaycan etnik-mədəni düşüncəsində, folklorumuzda izlər şəklində özünü qoruyub saxlamışdır. Müəllif həmin izlər əsasında bərpa işi apararaq ilkin yaradılışda iştirak edən qurd obrazının semantik modelini və onun transformativ törəmələrini bir sistem-qurd kultu modelində birləşdirməyə nail olmuşdur [7, s. 176].

Ümumiyyətlə, Bozqurdun semantikasında əcdad funksiyası əsas yer tutur. Türk mifoloji görüşlərinə görə, ilk olaraq sudan lil yaradılmışdır, lil qurudulub

torpaq edilmiş, həmin torpaqdan palçıq, palçıqdan da insan düzəldilmişdir. Daha sonra digər canlı və cansız varlıqlar yaradılmışdır. "Yaradılış" dastanında ilkin əcdada uyğun paralellər vardır. Dastanın məzmunu aşağıdakı kimidir: "Bir zaman Tanrı Qara xan və su var idi. Bir gün "Ağ Ana" göründü. Qara xana:"yarat", -dedi, suya girdi. Qara xan bir kişi yaratdı. Suyun üzəri ilə hər ikisi qara qaz kimi uçdular. Ancaq kişi Qara xandan da yüksəyə uçmağa çalışırdı. Bunu bilən Qara xan ondan uçmaq qabiliyyətini aldı. Kişi suya yuvarlandı. Boğulurdu. Qara xandan üzr istədi. Tutduğu əməldən peşman oldu.

Tanrı Qara xanın əmriylə sudan bir ulduz çıxdı, kişi ulduzun üstünə çıxıb xilas oldu. Qara xan ona bir daha uçmayacağını söylədi. Və dünyanı yaratmaq qərarına gəldi. Kişiyə buyurdu ki, suyun dibinə enib torpaq gətirsin. Öz şər düşüncəsindən əl çəkməyən kişi torpaqdan bir parça da ağzına aldı. Qara xan torpağı suyun üzərində tökdü. Və torpaq böyüdü, dümdüz bir dünya yarandı. Bu zaman kişinin ağzındakı torpaqda böyüdü. Qara xan ona "tüpür" – deməsəydi, boğulacaqdı. Ancaq onun tüpürdüyü torpaq bataqlıqlar, təpələr əmələ gətirdi. Bu hərəkətinə əsəbiləşən Qara xan ona Erlik (şeytan) adını verdi. Onu özünün işıqlı dünyasından qovdu. Daha sonra yerdə doqquz budağı olan bir ağac yaratdı, hər budağın altında bir adam yaratdı. Bu insanlar doqquz insan irqinin ataları oldular.

Erlik insanların bu xoş həyatını görüb Qara xandan xahiş etdi ki, bu insanları ona versin. Ancaq Qara xan razı olmadı. Erlik öz istəyindən dönmədi, insanları bir yolla öz tərəfinə çəkdi. Qara xan insanlara Erliyə aldandıqları üçün acıqlandı və onları öz başlarına buraxdı. Erliyi isə yeraltı dünyaya qovdu. Özü isə göyün on yeddinci qatına çəkildi. Mələklərdən birini də Yer üzünə insanları qoruması üçün göndərdi. Erlik Qara xandan yaratdığı gözəl göyü ondan istədi, aldatdığı şər ruhları da öz göyündə yerləşdirdi. Qara xan gördü ki, Erliyin təbəəsi onunkundan yaxşı yaşayır, onların yaşadığı göyü dağıtdı. Göy yıxılıb yerə düşdü, təpələr, dağlar yarandı. Erliyi də yerin ən dərin qatına göndərdi. Dünyanın sonuna qədər günəşsiz, aysız orda qaldı. Tanrı Qara xanda göyün on yeddinci qatında oturub hökmranlığını edir. Tanrı epiteti Qara xanı əcdadlıq funksiyasından kənarda qoymur, buna görə də Qara xanı ilk əcdad hesab etmək olar [7, s 131].

"Oğuz Kağan" dastanında Oğuzun ilk əcdad hesab edilməsinə səbəb buynuzdur. Oğuz orta çağ miniatürlərində buynuzlu təsvir edilir. Prof. Füzuli Bayat yazır ki, türk mədəniyyətində İslamın qəbulundan sonra mədəniyyətin bir sıra məsələləri islam-türk mədəniyyəti amilinə çevrildiyindən buynuz da alınıb şərq, həm də türk folklorunun mərkəzi obrazlarından biri olan İsgəndərə verildi" [2, s. 36-37]

Qədim türklər boz qurdu özlərinə əcdad hesab etmişlər. "Kitabi-Dədə Qorqud" dastanında da Qazan xan Boz Qurdu özünün əcdadı hesab edir, ona üz tutur, ondan yurdunu xəbər alır:

Yurdumun xəbərin bilürmisin,degil mana!
Qara başım qurban olsun,qurdum, sana! [12, s. 41]

Oğuz-Boz Qurd münasibətlərini Qazan xanla qurd arasındaki münasibət doğrultmaqdadır. "Oğuz Kağan" dastanında Qurdu yalnız Oğuz Kağan görür. Bu "Kitabi-Dədə Qorqud" dastanına da transformasiya olunub. "Kitabi-Dədə Qor-

qud" dastanında da Salur Qazan qurdla xəbərləşir. R.Əizadə yazır: "Oğuz-Boz qurd mifik münasibətləri Qazan-qurd epik münasibətlərində paradiqmalaşmışdır" [7, s. 102].

F.Bayata görə: "Göy Türklərdə əcdadlıq xilaskarlıq funksiyası ilə birləşib, əcdad-xilaskar şəklində rəsmiləşdirilib" [2, s. 47].

Bozqurd – totem məsələsinə elmi münasibət bildirən R.Əlizadə yazır: "Məlumdur ki, qədim türklərin inam sistemində Boz qurd öncül rəmz kimi dəyər qazanıb və epikmifoloji düşüncədə türklərin atası (əcdad kultunun daşıyıcısı) olaraq şifrələnibdir. Araşdırmalar nəticəsində o aydın olub ki, hunların və göytürklərin sakral əcdadı sayılan Boz qurd oğuz türklərinin də qoruyucusu və hamisi statusunu daşımışdır" [7, s. 102]. A.İnan isə yazır ki, "başqırdlara görə, Ural dağlarında qurd peyğəmbər səhabələrinə yol göstərmişdir. Yaxud da başqırd türkləri qurdu izləyərək gözəl təbiətli bir yerdə yerləşmişlər. Qurdu isə "kök cal" adlandırmışlar" [10, s. 126].

A.Şükürov"qədim türklərdə qurdun adının "göy börü olması onun Tanrı oğlu olmasına birbaşa işarədir...Tanrı oğlu olan qurdu yakut şamanları "Tanqara uola" (Tanrı oğlu) – deyə çağırırlar" yazaraq, bu mifoloji düşüncənin icbatını möhkəmləndirir. Alim fikrini davam etdirərək qeyd edir ki, "....ancaq bütün bunlar "Tənqri" sözünün sonradan aldığı məna və formalardır. Terminin ilkin yaranış dövründə isə, fikrimizcə, o, aşağıdakı mənanı bildirmişdir: yuxarıda gördüyümüz kimi, qədim türklər öz totemik əcdadları saydıqları qurdun üzərində əcdad kultu ilə solyar işıq kultunu birləşdirirdilər; qurd göydən yerə işıq şüası içərisində gəlir. Deməli, o, işıqdan doğur və işıq oğludur. Əski türk dilində işığa, səhər şəfəqinə "tanq" deyilməsini artıq bilirik. "Oğul" sözünə isə qədim türk dilində "uri" deyilirdi" [6, s. 614].

Yakut əfsanəsinə görə, onların ulu əcdadı yarısı insan, yarısı at şəklində göydən enən bir varlıqdır. Tarduş türklərinin əcdadı isə "qurd başlı bir insan idi". Bu, özünü Çin mənbələrində göstərmişdir [19, s. 93]. L.V.Qumilyov qeyd edir ki, türk xalqları psixoloji struktura görə özlərini qurd hesab edirdilər və "Aşina" sözü "Xeyirxah qurd" mənasını bildirirdi [13, s. 144].

Uyğur "Törəyiş" dastanında belə bir əfsanə yer alır: "Günlərin bir günü İmam Cəfər Həzrətləri ona inananlarla oturub söhbətləşirdi. Onlardan birinə üzünü tutub deyir: Sabah sənə bir nəfəri yollayacam, qızını ona verərsən. Bu insan da evə gəldikdə bu olanların hamısını arvadına danışır. Axşam yatıb, səhər durub hazırlaşırlar. Bu zaman qapının arxasından səs eşidirlər. Çölə çıxıb baxdıqda, qapıda bir qurdun dayandığını görürlər. Deyilən adamın bu olduğunu zənn edib qızını verir. Qurd qızı aparıb gedir. Bir neçə gün keçdikdən sonra arvad yoldaşına deyir ki, İmam Cəfərin sözü ilə qızı verdin qurda. Neçə gündür qızdan xəbər gəlmədi. Get bu qabaqdakı meşəliyə bax. Qurd qızı yeyibsə, sümüklərini tap gətir, bir yerə basdıraq. Ondan ümidimizi kəsək deyir. Bu səbəbdən kişi qızını axtarmaq üçün meşəyə üz tutur. Çoxlu quşların olduğu yerə gedib çıxır. Bir gözəl qız ilə, bir yaraşıqlı oğlanın orada oturduğunu görür. Öz qızını tanıyır. Qızı və yeznəsi ilə oturur. Onlara qorxduqlarını deyir. Evinə qayıdır. Gördüklərini arvadına danışır. Ər-arvad sevinir-

lər. Beləliklə, qurdla evlənmə və qurdun insanlaşması özünü göstərir. Qurd ata rolunu oynadığı üçün ondan həm qorxulur, həm də hörmət edilir [4, s. 9-12].

Mifoloji düşüncədə bir sıra əfsanələrdə qurd ata və ya ana kimi verilir. Göytürk dövlətinin də var olmasında qurdun ya qadınla, ya kişiylə evlənib nəsl artırması öz əksini tapır.

S.Rzasoy özünün "Oğuz mifologiyası" kitabında yazır: "KDQ-nin ("Kitabi-Dədə Qorqud" dastanının – N.S) ikinci boyunda Salur Qazanın yurd, su, qurd və köpəklə xəbərləşməsi onun qam(şaman) mediator funksiyasını ortaya qoyur. Bu elementlər uyğun olaraq oğuz ritual-mifoloji dünya modelinin müxtəlif qatlarını bildirir: Yurd toposfera, Su hidrosfera, Qurd zoosfera, Köpək zoosfera. Bunlara canlı varlıqlar kimi müraciət olunması həmin elementlərin mifoloji obrazlar olduğunu ortaya qoyduğu kimi, Qazanın da öz mənsub olduğu antroposferadan fərqli sferalara mediasiya etmək (adlamaq) qabiliyyətini göstərir" [18, s. 206-207]. "Qazan bu elemenlərə müraciət edirsə, deməli, onların dilini bilir. "Kitabi-Dədə Qorqud" dastanında Qazanın totem əcdadlığı üzə çıxır: "Əzvay bir qurd əniyində köküm var" [12, s. 118-119].

"Qorqud" sözünün mənşəyinə diqqət etsək, onun qurd sözündən yarandığını görərik. Folklorşünas H.İsmayılov qeyd edir ki: "Qorqut" çox əski bir inamdır; hamı ruhdur; qurdla bağlıdır; qurd totemidir; ...Vatikan nüsxəsində "Qorqut" yazılış şəkli orfoqrafik xəta olmayıb, katibin "Qorqud" adı ilə bağlı əlavə informasiyanın olduğundan xəbər verir; bu anlamda Qorqut "qoru qurt" (qoruyucu qurd) kimi izah oluna bilər. Hami ruh kimi əski türk şaman panteonunda, ata (peyğəmbər) kimi Tanrıçılıq sistemində... " Qorqud" nə qeyri-müəyyən bir mifoloji varlıq, nə də müəyyən bir tarixi şəxsiyyətdir. Əski çağın reallığına görə, bu, konkret olaraq, "qurd" (börü, gök börü, canavar) kimi təsəvvür olunmuşdur. Hami ruh kimi (animizm səviyyəsi), totem kimi (totemizm səviyyəsi) təsəvvürlərdə oturuşmuş Qorqud (qoruyucu qurd, xilaskar qurd) mifopoetik qavrama prosesində sakral (xilaskar, şaman, ata, peyğəmbər) və real (kahin, ozan, ağsaqqal, müdrik şəxsiyyət) olaraq semantik üzvlənmişdir" [11, s. 3-82].

İşin elmi nəticəsi və yeniliyi: Qədim türklərdə əcdad kultu kimi həm boz qurd, həm də insan nəzərdə tutulurdu. İnsan özünü Tanrının qohumu saymaqla onu əcdad hesab edirdi. İlkin əcdad qəbilənin əsasını qoyan hesab edilir. Əcdadlar haqqında nə varsa, onlar paradiqmatik səciyyə daşıyır. İlk əcdadlar öldükdə belə hətta ruhlara, heyvanlara çevrilə bilərdilər. Totem-əcdad Allah, yaradan surətinə çevrilə bilərdi, qadın əcdadlar isə nəsil artıran, Allah-ana surətinə çevrilirdi. Əcdad olaraq ilk insan-Adəm hesab edilirdi. "Quran"da və "Bibliya"da bu haqda məlumat çoxdur. Xalq düşüncəsinə görə, Allah kişini heç nədən yaratmışdır. Qadın isə kişinin qabırğasından yaranmışdır. Qədim türklərin cənub qəbilələri ilə olan mübarizə forması qurdların həyat tərzinə oxşayırdı. Buna görə də qurd türklər arasında simvola çevrilmişdi.

İşin nəzəri və prakiti əhəmiyyəti: Məqalənin nəzəri əhəmiyyəti onun nəticələrindən mövzu ilə bağlı digər tədqiqatlarda istafadə imkanları, praktiki əhəmiy-

yəti isə ondan ali məktəblərdə mifologiyanın tədris zamanı əlavə vəsait kimi istifadə imkanları ilə müəyyənləşir.

ƏDƏBİYYAt

1. Алекпер А.Ф. О культе собаки-волчицы у искоторых народов / Şərqin aktual problemləri: tarix və müasirlik (məqalələr məcmuəsi). Bakı:1994

2. Bayat F. Mitolojiye Giriş. İstanbul: Ötüken, 2007

3. Бессмертная О.Ю., Рябинин А.Л. Предки / Мифы народов мира. В 2-х томах. Том 2. Москва: Советская энциклопедия, 1982, с. 333-335

4. Bozkurt F. Türklərin dini. Cem yayınevi. 1995. 195 s.

5. Çoruhlu Y.Türk Mitolojisinin Anahatları.İstanbul: Kabalcı Yayınevi237 s.

6. Древнетюркский словарь. Москва: Наука, 1969,678 с.

7. Əlizadə R. Azərbaycan folklorunda təbiət kultları. Bakı: Nurlan, 2008, 174 s.

8. Gültepe N. Türk mitolojisi. İstanbul: 2015, 665s.

9. Həbiboğlu V. Qədim türklərin dünya görüşləri.Bakı: Qartal,1996, 223 s.

10. İnan A. Eski Türk Dini Tarihi. İstanbul: 1976

11. İsmayılov H. Göyçə dastanları: Türk epik sistemində dastan informasiyasının fasiləsizliyi / Göyçə dastanları və aşıq rəvayətləri. Bakı: Səda, 2001, s 3-82

12. Kitabi-Dədə Qorqud. Bakı: Öndər nəşriyyatı, 2004, 376s.

13. Qafarlı R. Azərbaycan türklərinin mifologiyası.Bakı: ADPU, 2010, 416 s.

14. Гумилев Л.Н. Тысячилетие вокруг Каспия. Баку: Азернешр, 1990,312 с.

15. Nəbiyev A. İlaxır çərşənbələr.Bakı: Azərnəşr, 1992

16. Потапов.Л.П.Элэмэнты религиозных верований в древиетюркских гомеалогических легендах // Жур. «Советская этнография», 1991, № 5

17. Ögəl B. Türk mifologiyası. I c. Bakı: Səda, 2004, 626 s.

18. Rzasoy S. Oğuz mifologiyası. Bakı: Nurlan, 2009, 363 s.

19. Uraz M. Türk mitolojisi. İstanbul: Hüsnütabat, 1967, 244 s.